# İPƏKÇİLİYİN VƏ BARAMAÇILIĞIN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Rasimə Hüseynova, Səfa Musayeva**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, huseynovarasime123@gmail.com*

İşğaldan azad edilmiş ərazilərdə baramaçılığın və ipəkçiliyin bərpası və inkişaf etdirilməsi üçün Heyvandarlıq ETİ aşağıdakı təkliflər paketini təqdim edir:

1. İnfrastruktura daxil olan bütün sahələrdə (baramaçılıqda, onun yem bazasında-tutçuluqda və ipək sənayesində) monitorinq, uçot və qiymətləndirmə aparılmalıdır;

2. Baramaçılığın və onun yem bazasının inkişafı üçün tinglik təsərrüfatları bərpa olunmalıdır. Çəkil (tut) ağaclarının sayı və məhsuldarlığı müəyyən edilməlidir;

4. Yeni, ictimai, kapital tipli kümxanalar (tut ipəkqurdu yemləmə binaları) tikilməli;

5. İnfrastrukturun bütün sahələrini ali təhsilli ipəkçi kadrlarla təmin etmək üçün Ağdamda və Şuşada texniki-peşə məktəbləri və liseylər açılmalı;

6. Barama toxum (qren) zavodu (Ağdam), baş barama qurutmaxanaları, Qarabağ ipək kombinatı yenidən tikilməlidir;

7. Heyvandarlıq ET İnstitutunda yeni yaradılmış tut ipəkqurdu cins və hibridlərini rayonlaşdırmaq üçün sınaq yemləmələrinin aparılması məqsədilə regionda Dayaq Məntəqəsinin təşkil edilməsi məqsədəmüvafiq olardı.